AZƏRBAYCANDA İNSAN HÜQUQLARININ VƏZİYYƏTİNƏ DAİR

FAKT-XÜLASƏ

YANVAR- MART 2020

Azərbaycanda insan hüquqlarının vəziyyətinə dair rüblük Fakt-Xülasə (Yanvar – Mart 2020)

Seçkilərin Monitorinqi və Demokratiyanın Tədrisi Mərkəzi (SMDT) Azərbaycanda insan hüquqlarının durumuna dair alternativ və açıq mənbələrdən toplanmış məlumatlar əsasında rüblük Fakt-Xülasəni təqdim edir.
SMDT Azərbaycanda insan hüquqları və demokratik institutların təbliği yönündə çalışan qeyri-hökumət təşkilatıdır.

Rüblük Fakt-Xülasə

SMDT 2020-cu ilin ilk rübü ərzində ölkədə insan hüquqları ilə bağlı baş verən hadisələrin monitorinqi və vətəndaşlardan daxil olan şikayətlərin yoxlanılması nəticəsində toplanan 141 fakt əsasında toplam 218 insan hüquqları pozuntusu qeydə alıb. Xüsusilə, ədalətli məhkəmə araşdırması, ifadə azadlığı və sosial hüquqlarla bağlı pozuntular rüb ərzində üstünlük təşkil edib. Bu rüb qeydə alınmış insan haqları pozuntularının 142-i mülki və siyasi hüquqların 76-ı isə iqtisadi və social hüquqların payına düşüb.

Bu rüb bir sıra ictimai-siyasi əhəmiyyətli hadisələrlə yadda qalıb. Belə ki, rübün əvvəlləri 9 Fevralda keçirilən növbədənkənar parlament seçkilərinə tuş gəlib. Rübün ortalarından isə bütün dünyanı bürümüş koronavirus pandemiyası Azərbaycanda da təsdiqini tapıb. Martın sonlarına doğru isə karantina rejiminin tətbiqinə başlanıb.

Rüb ərzində siyasi məhbus məsələsi həllini tapmayıb, müstəqil media orqanlarının saytlarına qoyulan giriş məhdudiyyətləri aradan qalxmayıb. Rübdə insan hüquqları ilə bağlı ən yaddaqalan anlar seçki prosesində pozuntular, seçki etirazları və pandemiya dövründə müxaliflər və aktivistlərə qarşı yeni siyasi təzyiq dalğası başlayıb.

SMDT bildirir ki, Milli Məclisə keçirilən növbədənkənar seçkilər ərəfəsində siyasi azadlıqlar, xüsusilə sərbəst toplaşmaq, birləşmək və ifadə azadlıqlarından istifadə üçün məhdudiyyətlər aradan qalxmayıb.[1] Seçkilər, o cümlədən seçki günü çoxsaylı qanun pozuntuları ilə yadda qalıb, bununla da azad və ədalətli şəkildə keçirilməyib, Azərbaycan xalqının azad iradəsini ifadə etməyib.[2]

Ədalətsiz məhkəmə qərarları və adekvat yaşayış standartlarının təmin olunmasında müvafiq qurumların hərəkətsizliyi rüb ərzində pozuntuların əsasını təşkil edib. Sosial yardımların təyin olunmasında bürokratik süründürməçilik və korrupsiya çoxsaylı şikayətlərə səbəb olub. Mülki və siyasi hüquqlardan ən çox ifadə və sərbəst toplaşmaq azadlığı təhdid altında olub. Xüsusilə də rübün ortalarından başlayan COVID-19 pandemiyası ilə bağlı vəziyyət ölkədə yeni siyasi təqib dalğasına bəhanə kimi istifadə olunub və 10-a yaxın ictimai-siyasi fəal karantina qaydalarını pozmaq, polisə tabe olmamaq və digər saxta ittihamlarla cəzalandırıblar.Ümumiyyətlə isə 2020-ci ilin ilk rübündə də Azərbaycanda insan hüquqları ilə bağlı sistematik problemlər həllini tapmayıb.

1. https://smdtaz.org/wp-content/uploads/2020/02/SMDT-100220.pdf
2. https://smdtaz.org/wp-content/uploads/2020/02/SMDT-100220.pdf

Seçkilərin Monitorinqi və Demokratiyanın Tədrisi Mərkəzi, 2001

Ümumilikdə isə, 2020-ci ilin ilk rübündə də Azərbaycanda insan hüquqları ilə bağlı sistematik problemlər həllini tapmayıb.

SMDT rüb ərzində qeydə alınan 221 insan hüquqları pozuntularını 15 kateqoriyada cəmləyib:



- Ədalətli Məhkəmə Araşdırması Hüququ 44
- İfadə Azadlığı 32
- Adekvat Yaşayış Standartları 26
- Sosial Təminat Hüququ 18
- Sərbəst Toplaşmaq Azadlığı 15
- Tibbi Yardım Hüququ 15
- Bərabərlik Hüququ 14
- İşgəncə və pis rəftar 11
- Mülkiyyət Hüququ 9
- Birləşmək Hüququ 8
- Şəxsi Həyat 8
- Yaşamaq Hüququ 1
- Hərəkət Etmək Azadlığı 4
- Təhsil Hüququ 3
- Əmək Hüququ 2
- Digər 9

Mülki və Siyasi Hüquqlar

Ifadə azadlığı

2020-ci il mülki və siyasi hüquqların təmin olunması baxımından uğurlu start götürməyib. Belə ki, son rüblə oxşar olaraq, rüb ərzində müşahidə olunan insan hüquqları pozuntularının əksəriyyətini mülki və siyasi hüquqlar təşkil edib.

Bu rüb boyunca da ifadə azadlığı çoxsaylı təhdidlər altında olub və ona gətirilən məhdudiyyətlər aradan qalxmayıb və müvafiq 32 pozuntu qeydə alınıb. Azadlıq radiosu, Azadlıq qəzeti, "Meydan TV", "Turan" telekanalı , "Azərbaycan Saatı"nın veb saytlarına 2017-ci ildə Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin müraciəti əsasında Sabunçu Rayon Məhkəməsi tərəfindən qoyulan giriş qadağası qalmaqda davam edib. Bundan başqa Nazirlik yenidən Ali Məhkəməyə müraciət edərək girişinə məhdudiyyət qoyulmuş saytlara giriş imkanı yaradan informasiya ehtiyatlarının da bloklanmasını istəyib. Ali Məhkəmənin Plenumu 19 mart 2020 tarixli qərarı ilə kassasiya şikayətini təmin edib və qərara, xüsusilə də anonimayzerlərin də bloklanması məsələsinə yenidən baxılması və üçün işi Apelyasiya məhkəməsinə qaytarıb. Media hüququ üzrə ekspertlər və insan haqları təşkilatları bildirir ki, anonimayzerlərin də bloklanması ilə qərarın miqyasının genişləndirilməsi ifadə azadlığına olan təhdidlərin artması mənasına gələcək.

İfadə azadlığının boğulması kimi qiymətləndirilən daha bir hadisədə isə əsas oyunçu Milli Məclis olub. 17 mart 2020-ci ildə Milli Məclis "informasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqda qanun"-a dəyişiklik edib. Dəyişikliyə əsasən, pandemiya ilə mübarizə dövründə sosial media platformalarından yalan və çaşdırıcı informasiyanın qarşısını almaq üçün müvafiq qanuna dəyişiklik edilib və qanunun miqyası artırılıb. Belə ki, bundan sonra sosial media istifadəçiləri də sosial mediada qadağan edilmiş məlumatın yayılmasına görə məsuliyyət daşıyacaqlar. Qərar pandemiya dövründə yalan və çaşdırıcı informasiyanın qarşısını almağa yönəlsə də, qərarın qəbulundan sonra bir neçə ictimai-siyasi fəal sosial mediada hökumətin COVID-19 ilə mübarizə siyasətini tənqid etdiyi üçün polis bölmələrinə dəvət olunaraq şifahi xəbərdarlıq alıblar.

Müstəqil media qurumları həssas xəbərləri tirajladığına görə rəsmi xəbərdarlıqlar alıb, saytlara müvəqqəti giriş məhdudiyyətləri qoyulub, kiber hücumlara məruz qalıblar. Bütün ölkəni sarsıtmış Tovuz rayonunda 10 yaşlı qızın zorlanaraq öldürülməsi hadisəsi ilə materiallar yayan jamaz.info saytının baş redaktor və təsisçisinə də Baş Prokurorluq tərəfindən rəsmi xəbərdarlıq edilib. Jurnalistlərsə 8 Martda feministlərin 'bizimdir hürr küçələr' aksiyası zamanı və Türkiyədə yaşayan Azərbaycanlı iş adamı Mübariz Mənsimovun həbsinə Bakdakı Türkiyə səfirliyinin qarşısındakı etiraz zamanı peşə fəaliyyətlərini həyata keçirərkən polis tərəfindən zorakılığa məruz qalıblar, onların çəkiliş aparmalarına maneə törədilib, onlar fiziki zorakılıqla ərazidən uzaqlaşdırıblar və s.

Rübün əvvəlləri Milli Məclisə keçirilən növbədənkənar seçkilərin namizədlərin irəli sürülməsi və təşviqat dövrlərinə tuş gəlib. Bu zaman əksərən müxalif və müstəqil namizədlərə, o cümlədən Müsavat və ReAl partiyalarının namizəd üzvlərinə iş yerlərindən, yerli icra hakimiyyəti orqanlarından namizədliklərini geri çəkməsi üçün siyasi təzyiqlər edilib. Bundan başqa Müsavat Partiyasının rəsmi facebook səhifəsi və partiyaya yaxınlığı ilə bilinən basta.info saytı, yanvarın 31-də kiber hücuma məruz qalıb.

Vəkillərə qarşı olan təzyiqlər də bu rübdə səngiməyib. Ötən rüblə oxşar olaraq, bu zaman periodunda da siyasi cəhətdən həssas işlərə çıxan vəkillər peşəkar fəaliyyətlərinə görə müxtəlif siyasi təzyiqlərlə üzləşiblər. Baş Prokurorluğun Ağır Cinayətlərə Dair İşlər üzrə İstintaq İdarəsinin müstəntiqi Orxan Babayev vəkil Zibeydə Sadıqova barədə Vəkillər Kollegiyasına şikayət edib. Buna səbəb vəkilin Gəncə işindən məhbus edilmiş Müşfiq Qurbanovun dindirilməsi ilə bağlı vəsatət verməsi göstərilib, vəkil isə bunun qanuna zidd olduğunu bildirir və insan hüquqlarının müdafiəsində aktiv çalışan vəkillərə qarşı siyasi təzyiqin bir hissəsi hesab edir. Beynəlxalq insan hüquqları təşkilatları da vəkillərə qarşı təzyiqləri pisləyib və Azərbaycan hökuməti və vəkillər kollegiyasını müxtəlif zamanlarda vəkillərə qarşı təzyiqləri dayandırmağa çağırıb.

Mülki və Siyasi Hüquqlar

Ədalətli məhkəmə hüququ

2019-cu ilin bütün rübləri ilə oxşarlıq təşkil edərək bu rüb də bütün pozuntu kateqoriyaları üzrə ən çox pozuntu (20%) ədalətli məhkəmə hüququnun təmin olunmaması ilə bağlı olub. Əsasən siyasi motivli həbslər zamanı məhkəmə işlərində formal məhkəmə prosesləri cəmi bir neçə dəqiqə davam edib, müdafiə tərəfinin vəsatətləri adətən təmin olunmayıb və polisin ifadəsi əsas sübut hesab olunub. Xüsusilə də mart ayının sonlarına doğru Azərbaycan Xalq Cəbhəsi Partiyasının və digər partiya və təşkilatların üzvləri karantina qaydalarını pozduqları iddiaları ilə həbs olunub, formal məhkəmələr sayəsində inzibati qaydada cəzalanıblar. SMDT bildirir ki, hökumət karantina qaydalarından siyasi rəqiblərinə və aktivistlərə qarşı sui-istifadə edib, onlar qurama ittihamlarla günahlandırılıblar. Bundan başqa bəzi hallarda ittiham olunan şəxsin vəkildən imtina etməsinə baxmayaraq vəkilin eyni işdə saxlanılması kimi olaylar yaşanıb.

- *8 mart 2020, "Bizimdir hürr küçələr" feminist aksiyası*

- Siyasi fəal Tofiq Yaqublu quarama ittihamla həbs olunur

Sərbəst Toplaşmaq Azadlığı

Qeyd olunan periodda Azərbaycanda sərbəst toplaşmaq azadlığı faktiki olaraq qadağan edilib, bu hüquqlardan yararlanmaq üçün müraciət edən qruplara şəhərdən kənar, əlverişsiz yerlər təklif olunub, mitinqlər polis zorakılığı ilə dağıdılıb. Azərbaycanda sərbəst toplaşmaq azadlığı bir qayda olaraq rəsmi qurumlar tərəfindən yanlış şərh olunur və vətəndaşların yığıncaqla bağlı xəbərdarlıq veməsi əvəzinə müvafiq orqanlardan icazə almaları gözlənilir. 11 və 16 fevral tarixlərində Mərkəzi Seçki Komissiyası (bundan sonra MSK) qarşısında, 8 mart və 18 mart Bakıda digər ərazilərdə təşkil olunan etiraz aksiyaları da bu qəbildəndir.
MSK qarşısında bir qrup vətəndaş, seçkilərdə namizəd və müşahidəçi kimi iştirak etmiş şəxslər 11 və 16 fevral tarixlərində etiraz aksiyası keçiriblər. Bu zaman etirazçıların aksiya yerinə gələ biləcəyi yollar polis tərəfindən qapadılıb, etirazçılar döyülərək polis avtobuslarına mindiriliblər və şəhərdən kənarda əlverişsiz yerlərdə düşürdülüblər. Feministlərin təşkil etdiyi 8 mart tarixli 'Bizimdir Hürr Küçələr' sloqanlı aksiyasında da polis aksiya iştirakçıları və jurnalistlərə qarşı zorakı üsullardan istifadə edib, çoxsaylı etirazçı saxlanılarkən təzyiqlərə məruz qalıb, müxtəlif bədən xəsarətləri alıb. Türkiyədə yaşayan iş adamı Mübariz Mənsimovun həbsinə etiraz edən bir qrup şəxs martin 18də Bakıdakı Türkiyə səfirliyi qarşısında toplaşsa da polis bu dəfə də aksiya iştirakçılarını kobudluqla ərazidən qovub və jurnalistlərə qarşı zorakılıb tətbiq edilib.

İşgəncə və pis rəftara məruz qalmamaq hüququ
Ötən rüb ərzində də Azərbaycanda əsasən müxalif partiya üzvləri və aktivistlərin, o cümlədən saxlanılan digər vətəndaşların saxlanılarkən və saxlanma mərkəzlərində işgəncəyə, alçaldıcı və qeyri-insani münasibətə məruz qalma praktikası davam edib. Respublikanın müxtəlif şəhər və rayonlarından həbs edilmiş və saxlanılmış şəxslərin qisasçı motivlərlə döyülməsi, zorla ifadə alınması məqsədilə onlara müxtəlif növ işgəncələrin verilməsi xəbərləri yayılıb. Yerli poliz zabitini zorlamada ittiham edən AXCP fəalı Əlzamin Salayev bir neçə polis nəfəri tərəfindən saxlanma məntəqəsinin tualetində döyülüb, onun bədəninə tok verilib. Digər bir AXCP üzvü, sədrin sürücüsü Paşa Umudov isə zorla ifadə verməsi üçün saatlarla ayaqüstə, üzüdivara saxlanılıb, arxada dayanan polis əməkdaşı isə beyzbol cubuğuyla mütəmadi öz əlinə, yerə vurub, onu təzyiq altında saxlayıb. Rayon polis idarələri və DİN-in Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsi işgəncə xəbərlərində əsas vurğulanan orqanlar olub.

Mülki və Siyasi Hüquqlar

Jurnalist, siyasi məhbus Əfqan Muxtarlı mart ayında azadlığa çıxıb

Hökumətin rəqibləri və tənqidçiləri həm seçki sonrası dövrdə həm də COVID-19 pandemiyası zamanı yeni təqib dalğasının hədəfinə çevriliblər

AXCP üzvü Aqil Hümbətov Mart ayının sonlarında saxlanılıb

Bərabərlik hüququ, təqiblər və siyasi məhbuslar

Bərabərlik hüququ da ötən rüb ərzində təhdid altında olan insan hüquqları kateqoriyalarından olub. Belə ki, əsasən ictimai-siyasi fəallara qarşı saxlanma və həbs zamanı və məhkəmə işlərində ayrıseçkilik əlamətlərinə rast gəlinib. Hökumətin rəqibləri və tənqidçiləri həm seçki sonrası dövrdə həm də COVID-19 pandemiyası zamanı yeni təqib dalğasının hədəfinə çevriliblər. Onlara qarşı müxtəlif siyasi təzyiq metodlarından istifadə edilib, onlar ofislərindən zorla çıxarılıblar, provokasiyalara məruz qalıblar, qanunları pozmadıqları halda cərimələniblər, inzibati həbs cəzaları alıblar və bəzilərinin haqqında qurama ittihamlarla cinayət işləri açılıb. Təsadüfi deyil ki, Avropa İnsan Hüquqları Məhkəməsi də Əsas İnsan Hüquq və Azadlıqlarının Müdafiəsi Konvensiyasının 18-ci maddəsi üzrə Azərbaycanın dəfələrlə rəqiblərinin və siyasi-ictimai fəalların haqlarını qisasçılıq və siyasi təzyiq zəmnində pozduğunu aşkara çıxarıb.

Rüb ərzində bəzi siyasi məhbus hesab olunan şəxslər azadlığa çıxsa da, siyasi məhbuslarla bağlı problem də həllini tapmayıb. 2017-ci ildə Gürcüstanda saxlanılaraq zorla bakıya gətirilən və həbs olunan journalist Əfqan Muxtarlı Mart ayının 18də azadlığa buraxılıb. Ancaq o azadlığa buraxılan kimi yenidən zorla ölkədən kənara çıxarılıb və Almaniyaya göndərilib. Əvəzində isə hesabat dövründə siyasi motivli təqiblər və həbslər davam edib. SMDT bildirir ki, hökumət xüsusilə də COVID-19 pandemiyası ilə mübarizə çərçivəsində qəbul etdiyi karantina qaydalarından siyasi rəqibləri və hökumət tənqidçiləri əleyhinə istifadə edib.

Belə ki, Prezidentin 19 martda Novruz bayramı ilə bağlı çıxışında müxalifəti hədəf göstərməsi və yeni siyasi təqib dalğasına işarə etməsindən sonra Demokratik Qüvvələrin Milli Şurasının Koordinasiya Mərkəzinin və Müsavat Partiyasının üzvü Tofiq Yaqublu martin 22-də qurama ittihamla həbs edilib və 3 aylıq həbs-qətimkan tədbiri ilə cəzalandırılıb. Hadisəni şəxsi hesabından şərh edən Tofiq Yaqublu bunun provakasiya olduğunu və siyasi təzyiq olduğunu bilidirib. Yerli insan hüquqları müdafiəçiləri hadisənin detallarında məntiqi boşluqlara diqqət çəkib, bir neçə beynəlxalq qurumdansa hadisə ilə bağlı qınayıcı şərhlər verilib və hökumət Tofiq Yaqublunu dərhal azad etməyə çağırılıb. Pandemiya ilə bağlı həbslər bununla da yekunlaşmayıb və martin sonuna qədər 10-a yaxın ictimai-siyasi fəal, xüsusilə də AXCP üzvləri saxta ittihamlarla siyasi təzyiqlə üzləşiblər, saxlanılıb və həbs olunublar. Bu dövrdə saxlanılanlar əsasən karantina qaydalarını pozmaqda ittiham ediliblər.

Bundan başqa AXCP üzvü Aqil Hümbətov mart ərzində iki dəfə siyasi təzyiqlə üzləşib. Belə ki, martin 14-də və 31-də sosial media hesabından prezidentə video-müraciət edərək tənqid etdiyi üçün saxlanılıb. Birinci dəfə sonradan Aqil sərbəst buraxılsa da, ikinci dəfə saxlanılandan sonra zorla 1 saylı Psixiatriya Xəstəxanasına salınıb. Ümumilikdə isə hesab olunur ki, hesabat dövründə siyasi məhbusların sayı 100 nəfərdən aşağı olmayıb.

Sosial və İqtisadi Hüquqlar

Fevral ayının sonlarında Azərbaycanda da ilk dəfə koronavirusa yoluxma faktının təsdiqlənməsi xüsusilə də sosial-iqtisadi haqların təmin olunması məsələsini gündəmə daşıyıb.

Tibbi yardım almaq hüququ

Tibbi yardım almaq hüququ ilə bağlı pozuntularda əsasən həkim səriştəsizliyi və qeyri-professionallığı, icbari sığortaya keçid zamanı tibbi müalicə almaq imkanından məhrum olma kimi hallar qeydə alınıb. Bundan başqa cəzaçəkmə müəssisələrində məhkum olunmuş şəxslər yüksək hərarət və boğaz ağrılarından əziyyət çəksələr də onlar adekvat tibbi yardım hüququ ilə təmin olunmayıblar. Eyni zamanda istintaq təcridxanalarında da saxlanılan şəsxlərin sağlamlıqlarına təhlükə törədəcək şəkildə saxlanılmalarına dair şikayətlər qeydə alınıb.

Zərdabda kənd sakinləri magistral yolu bağlayıblar

Sabirabadda dializ şöbəsində müalicə alan pasiyentlər zəhərlənib

SMDT-ni sosial şəbəkələrdə izləyin:

smdtaz.org

@smdt_emds

/AZEelections

@smdt_emds

Sosial təminat hüququ

Sosial təminat hüququ ilə bağlı pozuntularda digər rüblərlə oxşar olaraq Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi şikayətçilərin əsas hədəfi olub. Belə ki, ƏƏSMN-in müxtəlif rayon şöbələrindən ünvanlı sosial yardım və pensiyanın təmin olunmasında sürüdürməçilik, rüşvət istənilməsi, süni əngəllərin yaradılması hüquq pozuntularına əsas səbəb olub. Bundan başqa müvafiq sosial yardımlara müraicət etmək xidmət göstərən rəsmi veb-sayt da fasiləsiz və meneəsiz işləməyərək problemlərə yol açıb

Adekvat yaşayış standartları

Ötən rüblərlə oxşarlıq təşkil edərək bu dəfə də adekvat yaşayış standartları ilə bağlı pozuntular əsasən regionlarda qeydə alınıb. Şikayətlər əsasən regionlarda qaz, su və işıq təminatında fasilələrlə və vətəndaşlardan bu xidmətlərin təşkili üçün rüşvət istənilməsi ilə bağlı olub. Məcburi köçkünlərin və aztəminatlı qrupların da həyat şəraitinə münasibətdə dövlət qurumlarının hərəkətsizliyi şikayətlərin digər əsas səbəblərindən olub. Bundan başqa, Respublikanın müxtəlif şəhər və rayonlarından ictimai nəqliyyatın səmərəsiz təşkili də sakinlərin etirazlarına səbəb olub.